# 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür

Azərbaycan iyirminci əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandırmışdır. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirilmişdir.

1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşamışdır. İkinci tarixi imkan bir də 70 il sonra yaranmışdır. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini yenidən bərpa etmək imkanı vermişdir.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunmuşdur. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşmuşdur. Bir tərəfdən imperiyanın dağılmağa başlaması, digər tərəfdən xalqın artmaqda olan təzyiqi respublikanın hakim dairələrini manevr etmək məcburiyyətində qoymuşdu. Yuxarılarda belə hesab edirdilər ki, bu sənədin qəbul edilməsi xalqı sakitləşdirəcək, hakimiyyətin ömrünü uzatmağa imkan verəcəkdir. Ona görə də təsadüfü deyildi ki, "Konstitusiya Aktı" ilkin mərhələdə yalnız quru kağız olaraq qalırdı. Azərbaycan yenə də Moskvadan idarə edilir, rejim Kremlin dediyi ilə oturub-dururdu. Xalq isə həqiqi müstəqillik tələb edirdi.

Xalqın arzu və tələbinə uyğun olaraq Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi (referendum) keçirilmişdir. Referendum bulletenində bir söz yazılmışdı: "Siz Azərbaycanın dövlət müstəqilliyi haqqında Azərbaycan Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktı"na tərəfdarsınızmı?" Səsvermə hüququ olanların 95%-indən çoxu referendumda iştirak etmiş, Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxmışdır. Ölkəmizin müstəqilliyini dünya dövlətləri tanımış, Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınması təmin olunmuşdur.



Müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdır. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səriştəsiz adamların yeritdikləri səhv siyasət və daxildə gedən siyasi şəkişmələr, separatçılıq hərəkatı müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini yaratmışdı.

Lakin xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu. Ulu öndərin başlatdığı yolun Prezident ilham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, hazırda müstəqilliyimizin siyasi və iqtisadi sütunları kifayət qədər möhkəmlənmişdir. Xalqın öz dövlətçiliyinin gələcəyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir.

Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli mənəvi dəyərlərin qorunub saxlanmasına eyni dərəcədə diqqət verilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən möhtəşəm layihələr nəticəsində respublikamız bu gün həm siyasi, həm də iqtisadi cəhətdən regionda qüdrətli dövlətlərdən birinə çevrilib.

# Prokurorluq İşçiləri Günü qeyd olunub




Qəbələ Rayon Prokurorluğunun işçiləri peşə bayramlarını qeyd ediblər. Oktyabr 1-də Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, rayon prokurorluğunun, digər hüquq mühafizə orqanlarının işçiləri Qəbələ şəhərinin mərkəzində yerləşən Heydər Əliyev parkına gələrək ulu öndərin burada ucaldılan abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsinə ehtiramlarını nümayiş etdirmişlər.



Rayon prokurorluğunun inzibati binasında davam edən bayram tədbirində rayon prokuroru, baş ədliyyə müşaviri Məqsəd Orucov məruzə etmiş, Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixi və bu günü haqqında danışmışdır.

Məqsəd Orucov bildirmişdir ki, Azərbaycan Respublikasında prokurorluq sisteminin yaranmasından 101 il keçir. Belə ki, 1918-1920-ci illərdə Azərbaycanda fəaliyyət göstərmiş Xalq Cumhuriyyətinin Nazirlər Şurasının qərarı ilə 1 oktyabr 1918-ci ildə Bakı Dairə Məhkəməsi tərkibində prokurorluq orqanları fəaliyyətə başlamışdır. Aradan keçən 101 ildə Respublikamızın Prokurorluq orqanları çətin və şərəfli bir yol keçmişdir.

Azərbaycan Respbulikası 1991-ci ildə ötən əsrdə ikinci dəfə müstəqillik əldə etdikdən sonra artıq ölkə prokurorluğunun işinin milli maraqlar üzərində qurulması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə 1 oktyabr Respublikamızda Prokurorluq İşçiləri Günü elan olunmuşdur.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev peşə bayramları münasibətilə rayon prokurorluğu işçilərini təbrik etmiş, qanunların keşiyində şərəflə durmuş bu orqanın işinin daha da yaxşılaşdırılması üçün respublikamızda həyata keçirilən tədbirlərdən danışmışdır.

Çıxış edənlər prokurorluq orqanlarına göstərilən qayğı və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

**«Qəbələ»**

# Siyahıyaalma mütəşəkkil keçirilib

"2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" Prezident İlham Əliyev tərəfindən 2016-cı il sentyabrın 7-də imzalanan Fərmana əsasən oktyabrın 1-dən 10-dək müstəqillik dövründə Azərbaycanda sayca üçüncü dəfə əhalinin siyahıyaalınması keçirilib.

BMT-nin "2020-ci il mərhələsində əhali və mənzil fondunun siyahıyaalınmalarının keçirilməsinə dair Avropa statistikləri konfransının tövsiyələri"ni özündə əks etdirən siyahıyaalma proqramı Azərbaycanda müəyyən edilmiş sosial-iqtisadi siyasət kursuna uyğun qərarların qəbulu, statistik məlumatlara olan tələbatın təmin edilməsi məqsədi daşıyır.

Bu mühüm kampaniya Qəbələ rayonunda da böyük mütəşəkkiliklə keçirilib. Əhalinin sayı, strukturu, ərazi baxımından sakinləşməsi, etnik tərkibi, təhsil səviyyəsi, sosial-iqtisadi vəziyyəti və digər xüsusiyyətləri baxımından dövlət informasiya ehtiyatlarının formalaşması üçün unikal bir mənbə kimi xarakterizə edilən siyahıyaalma demoqrafik və sosial-iqtisadi məlumatların əldə edilməsi üçün xüsusi imkan yaradır.

Qəbələ ayonunda yaradılmış 8 siyahıyaalma, 70 təlimatçı-nəzarətçi və 351 sayıcı məntəqəsinin məqsədyönlü fəaliyyəti sayəsində sosial, iqtisadi sahələrin inkişafı, ümumilikdə əhalinin rifahının yüksəldilməsi üçün müvafiq siyasətin formalaşmasında və həyata keçirilməsində mühüm rol oynayan siyahıyaalma uğurla başa çatıb.

**"Qəbələ"**

# Ahılların sosial müdafiəsi diqqət mərkəzindədir

***Oktyabrın 1-də Qəbələdə Beynəlxalq Ahıllar Günü münasibəti ilə tədbir keçirilib.***

***Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, ulu öndərə öz dərin ehtiramlarını bildiriblər.***

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Allahverdiyev BMT-nin Baş Məclisi tərəfindən1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edildiyini və həmin qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i tarixinin bütün dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunduğunu bildirib. Qeyd olunub ki, bu tədbirin beynəlxalq səviyyədə keçirilməsi ahıllara diqqət və qayğının artırılması məqsədini daşıyır. Ölkəmizdə 1993-cü ildən qeyd edilən Beynəlxalq Ahıllar Gününün ümummilli lider Heydər Əliyevin ahıl insanlara, onların problemlərinə hər zaman göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsi olduğu və onun 22 iyun 2001-ci il tarixdə imzaladığı "Ahıllara sosial xidmət haqqında" Qanunun yaşlı insanların problemlərinə həssas münasibət göstərilməsini stimullaşdırdığı vurğulanıb.

Bu gün yaşlı insanların sosial müdafiəsinin gücləndirilməsinin Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzində olduğunu deyən Arif Allahverdiyev "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ölkə başçısı tərəfindən davamlı islahatlar həyata keçirildiyini bildirib.

Tədbirdə çıxış edən rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, ağsaqqallardan Vaqif Əzimov, Rəzi Seyidov və digərləri



yaşlı nəslə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Onlar ölkə başçısının düşünülmüş, məqsədyönlü siyasətini hər zaman dəstəklədiklərini bildiriblər.

Bayram tədbiri çay süfrəsi ətrafında davam edib.

**"Qəbələ"**